# CİRİD OYUNU

Orta əsrlər Azərbaycan ərazisində ən çox yayılan atüstü milli-xalq idman oyunlarından biri də ciriddir. ("cərid", yəni nizə sözü anlamındadır). Mənbə-lərdə göstərildiyi kimi, Səfəvi hakimiyyəti illərində bu oyuna daha çox diqqət yetirilərmiş. Ölkədə xalqın və idmanın inkişafına xüsusi qayğı göstərən Şah İsməyıl Xətai çovkan, qəpəq və b. hərbi-idman, habelə digər atüstü, mütəhər-rik oyunlarla yanaşı cirid yarışlarında da həvəslə iştirak edərmiş.

Atlı idman oyunları içərisində xüsusi əhəmiyyət kəsb edən Ciriddə idman-çı at çapmaqda, silah işlətməkdə məharət göstərməklə yanaşı, həm də fiziki cə-hətdən yetkin və çətinlikdən gözü qorxmayan bir adam olmalı idi. Fransız səyyahı J.Şarden cida atma oyununun "cərid" adlandırıldığını qeyd edərək ya-zırdı: "cidanı xurma ağacının quru budağından düzəldirlər. Ucu ikibaşlı olub kifayət qədər uzun və ağır olur. Orda elə mahir cərid idmançıları vardı ki, on-lar bu qədər ağır və uzun cidanı hətta altı-yeddi yüz ayaq uzağa ata bilər". Məşhur səyyah Evliya Çələbi isə qeyd edirdi ki, - cərid əslində türk atlı hərbi-idman oyunu olub. Bu oyunda qarşı tərəflər biri digərinə, yaxud əvvəlcədən müəyyən olunmuş hədəfə cida, mizraq ataraq təlim məşqləri ilə məşğul olur, bəzən isə öz aralarında yarışırlar. "Qoşunun əsas hissəsindən 12, ya da 15 nəfər atlı ayrılıb birlikdə manqa təşkil edirlər. Buna uyğun başqa bir manqa isə mərkəzdəki qoşundan ayrılıb onları qarşılamaq üçün hərəkətə keçir. Qarşı-qarşıya gələn manqalar cidaları bir-birinə tərəf atdıqdan sonra hərəsi öz alayı-na dönür və alaylardan başqa manqalar ayrılıb yenə də mübarizəni davam et-dirirlər. Və beləliklə oyun başa çatmağa doğru gedir".



İgidlik, mərdlik aşılayan həmin milli idman oyunumuz haqqında bilgilər ərəb tarixçilərinin diqqətini də cəlb etmişdir. Məşhur ərəb alimi Əl-Cahiz bu barədə belə yazırdı: "xaricinin nizəsi uzun və içərisi doludur, türkün nizəsi isə qısa, həm də içərisi boşdur. Qısa və içərisi boş nizələrin zərbəsi daha şiddətli olur və onları daşımaq daha yüngüldür. Əcəmlər (farslar) isə uzun nizəni piya-da üçün düzəldirlər. Belə nizələri xəndək qapılarında və dağ keçidlərində əbna işlədir. Ancaq əbna bu sahədə türklərlə və xorasanlarla yarışa bilməz. Çünki əksər hallarda əbna bu növ nizələri xəndək qapılarında, dağ keçidlərində işlə-dir".

Türkün qəhrəmanlıq eposlarının hər birində bu hərbi silah, fiziki alət və ləvazimatın adı tez-tez çəkilir. İstər yerdə, lakin ən çox at üstündə uzaq məsa-fəyə, həm də hədəfi sərrast tuşlamaq prinsipi ilə



yarışılan cərid oyunu iştirak-çıdan əyilməz qamət, enli sağrılı olan uzun ayaqlı dözümlü şahbaz at, hər bir iştirakçıdan güclü, möhkəm çiyin, qüvvətli qol, dəmir bilək tələb edir.

Uzun ağaca keçirilmiş ucu şiş, deşici qədim silah kimi işlənən cida "Kitabi-Dədə Qorqud" dastanında adı başqa silahlarla birgə çəkilərək, uyğun elementlərlə yanaşı işlədilir: "Ala uran, (uzaq vuran) sür cida (çoxillik qamışın yoğun gövdəsindən hazırlanmış nizə), qara polat üz qılınc, qabo topuz" və s. Uruzu arayan Burla xatun belə deyir:

Qarğu cida oynadanlar vardı, gəldi,
Altun cida oynadana, yarəb, noldı?

"Kitabi-Dədə-Qorqud"un başqa bir boyunda da bu silahın adına təsadüf olunur. "Altun dağa kök poladın mana vergil, yigit! Əlündəki sür cidanı". Ya-xud, "Qanlı qoca oğlu Qanturalı boyu"nda da Qanturalı sarı donlu sevgilisi Selcanın eşqi ilə bir "hu!" deyərək buğa ilə döyüşməyə yollanır: "Buğanın zəncirin aldılar, salı verdilər. Buynızı almas cida kimi Qanturalının üzərinə sürdülər".

"Koroğlu" dastanında "Koroğlunun qocalığı" qolunda da bənzərsiz türk cahangirinin bu məsələyə münasibəti birmənalı olaraq nəzərə çarpır. Əzazillə-rə, müxənnət yağılara qənim kəsilən Koroğlu camaatın rahatlığını qoruyur, xalqın şərəf və ləyaqətinin keşiyində qeyrətlə durur. Koroğlu və onun qoç ərənlərinin yarışdıqları atüstü oyunlar, habelə onların ox-kaman, qılıncoynat-ma, gürz, şeşpər, cida atmaq və sair kimi fiziki təmrinlər dastanda öz əksini ta-pır. Dastanda tez-tez digər silahla yanaşı, cərid oyununda istifadə olunan cida haqqında belə deyilir:

Qoç yarandım əzəl başdan,
Vursam, cidan keçər daşdan,
Hələ qovğadan, savaşdan
Qalmamış qollarım mənim.

Orta yüzillərdə Azərbaycan xalqının yaşayışı üçün səciyyəvi olan müxtəlif oyun və əyləncələr mənəvi dünyamızın formalaşmasında xüsusi yer tutur. Bu dövrdə atlı idman oyunlarının, əyləncələrin inkişaf edərək ölkə miqyasında ge-niş yayılması xalqın onlara bəslədiyi marağın artmağından irəli gəlirdi. Bu oy-unlarla gənclərə cəldlik, çeviklik, qorxmazlıq kimi yüksək iradi keyfiyyətlər aşılamaqla bərabər, həm də  və onlar hərbi qulluq üçün tam yararlı bir quruma sahib olmaq üçün etibarlı zəmin yaradırdı.

## Qəpəq oyunu

Azərbaycan Səfəvi hakimiyyəti illərində ölkəmizdə sevilən və ən populyar milli idman oyunlarından sayılan qəpəq, digər variantda "qıpıq oyunu" dina-mikliyi, mütəhərrikliyi ilə seçilən oyunlarımızdan biriydi. Səfəvilər hakimiyyəti dövründə qəpəq oyununda təkcə qızılbaş döyüşçüləri deyil, bütün gənclərin ya-rışdıqları qeyd olunur. Qaynaqlarda göstərilir ki, Səfəvi hökmdarı Şah İsmayıl Xətai bu oyuna böyük maraq göstərirmiş. Təbriz şəhərində Şah İsmayılın qə-pəq oyununda iştirakını təsvir edən avropalı müəlliflərdən biri yazır ki, - "Şah İsmayıl əmr etdi ki, meydanın ortasında hündür bir dirək basdırsınlar və onun başına qızıl alma qoysunlar. Kim çaparaq onu vurub salarsa qızıl alma onun-ku olsun. Şahın iştirak etdiyi bu oyunda dirəyin başına on qızıl, on gümüş al-ma sancıldı. Oyun başlandı. Arabir şah bir qədər dincəlib sonra yenə oyuna davam edirdi. Burada 30 minə yaxın tamaşaçı var idi".

XVI yüzilin əvvəllərində Azərbaycana gələn venetsiyalı bir tacir öz gün-dəliyində yazırdı ki, İsmayıl bir ildən sonra Təbrizə döndü və ora çatan kimi bayram şənlikləri başladı. On dörd gün ərzində İsmayıl hər gün əmirləri ilə ox atmaqla məşğul olurdu. Meydanın ortasındakı dirəklərin üzərinə hər gün on qızıl və on ədəd gümüş alma qoyulurdu. Hər kim qaça-qaça atdığı oxla almanı yerə salsa idi, həmin alma onun olurdu. Hər dəfə alma yerə salındıqdan sonra fasilə edərək şərbət içməklə məşğul olurdular. Oyun müddətində şahın yaxın-lığında iki nəfər yaraşıqlı gənc dayanmışdı ki, onlardan biri əlində qızıl bar-daq, digəri isə əlində iri şirni ilə dolu boşqab tutmuşdu. Əmirlərə də şərbət və şirni paylanılırdı. Bu gənclər İsmayıl asudə olduqda dərhal ona yaxınlaşırdılar. Oyun vaxtı 1000 nəfərdən ibarət qaravolçular da hazır vəziyyətdə onun yanın-da dayanmışdı. O cümlədən şəhər əhalisi və əsgərlərdən ibarət otuz minə yaxın tamaşaçı isə meydanın kənarında yerləşmişdi. Sol əli ilə işləyən İsmayıl öz əmirlərinin hamısından güclü idi. Oxçuluqda çox məharətli olduğuna görə hər dəfə on almadan altısını vurub yerə salırdı.



Naməlum venetsiyalı tacirin qeydlərindən göründüyü kimi o, maraqlı bir idman oyununun müfəssəl təsvirini vermiş, ancaq onun adının qəpəq oyunu olmasına işarə etməmişdir. Eyni zamanda naməlum tacirin gündəliyində bu oyunun atlı idman oyunu olması haqqında da məlumat yoxdur.

Osmanlı səyyahı Evliya Çələbi də 1647-ci ildə Təbriz şəhərindəki Şah Şəfi bağının meydanında həmin oyunu müşahidə etmiş, ancaq onun adının qəpəq idman oyunu olmasını gündəliyində qeyd etməmişdi. O, Təbrizin Şah Səfi par-kındakı çövkən meydanında təşkil olunan oyun barədə yazırdı: "...Meydanın ortasında iki göyrüş sütun bir-birinə bərkidilib və onun zirvəsinə isə bir gümüş tas qoyulmuşdur. Hər cümə günü əsgərlər öz iti qaçan atlarını minib əvvəl meydanda əylənir, sonra yuxarıda qeyd olunan tasa ox atırlar. Qalanları isə tamaşa edirlər".

Bu oyunu məşhur fransız səyyahı J.Şarden "atlı ox-kaman oyunu" adlan-dırmışdı. O, bu oyunun atlı idmançının oxu 120 ayaq hündürlüyündəki cama atmasından əmələ gəldiyini deyir. Səyyah yazır ki, bu sütuna əyri ağac millər mıxlanmışdı ki, onlardan sütuna qalxmaqda pilləkən kimi istifadə olunur. Atlı əlində ox-kaman atını sütuna doğru çapıb onun əks tərəfinə keçdikdən sonra geriyə, sağ və

sol tərəfə dönüb oxları atmağa başlayır. Bu zaman hər iki tərəfə fırlanmaq tələb olunduğuna görə çox məharətli olmaq lazımdır. Bu idman növü ölkənin bütün şəhərlərində yayılıb və dəbdədir. Hətta şahlar da bu oy-unla məşğul olur. Şah Süleymanın babası Şah Səfi bu oyunda çox məharətli olub həmişə camı ya birinci, ya da ki, ikinci oxla vurardı. II Şah Abbasın özü, onun oğlu da bu idmana çox yaxşı bələd idilər. Şah Süleyman qeyd olunan idman yarışlarında digər şahlardan geri qalmamış və bu sahədə çox uğur qa-zanmışdır. Şardenin bu müfəssəl təsviri qeyd olunan idman oyununun qəpəq oyunu olduğunu aydın şəkildə göstərir. Səyyah gündəliklərindən aydın olur ki, həmin atüstü oyun məmləkətin əksər şəhərlərində təşkil olunmaqla getdikcə kütləviləşir və bu sahədə idman yarışları da keçirilirdi. Hətta əcnəbi ölkələrdən gələn elçilərin şərəfinə onların hərbçiləri ilə yerli idmançılar arasında qəpəq oyunu yarışı keçirilməsinə də səyyahın gündəliklərində təsadüf olunur.

Vətənimizin bir sıra bölgələrini gəzib dolaşmış hollandiyalı səyyah Yan Streysin gündəliyində də bu barədə maraqlı məlumatlar var. "Yanvarın (1671-ci il) 23-də mən burada əla oyun gördüm. Bu oyunu şah özbək tatarlarını əy-ləndirmək və şənləndirmək üçün təşkil etmişdi və özü də əyanları ilə bu oyuna tamaşa edirdi. Şah almaz və yaqutla bəzənmiş əla ərəb atının üstündə otur-muşdu. Bu daş-qaşlar adamların gözünü qamaşdırırdı. Onun əyanları da, elçi-lər də yaraşıqlı geyinmişdi. Oyun qaydasına görə meydandakı sütunun zirvəsi-nə qoyulmuş qızıl camı kim vurub salsa, onu həmin adam götürməli idi. Həm-çinin ona xan rütbəsi vəd edilmişdi. Şah ehtiram və hörmət əlaməti olaraq öz-bəklərə üstünlük verdi və cama birinci onlar ox atmağa başladılar. Lakin bir saatdan artıq çalışdıqlarına baxmayaraq onların heç birinin bəxti gətirmədi. Əslində camı vurmaq asan deyildi. İdmançılar atı dördnala çapmalı idi və sütuna çatana qədər onlara ox atmağa icazə verilmirdi. Atlı dördnala çaparaq sütunun yan tərəfinə keçdikdə dayanmadan atı döndərib cama ox ata bilərdi. Özbəklərin çoxu atı qaçarağında dönərkən yıxılırdılar. Özbəklər bunu görüb oyundan imtina etdilər və şaha elan etdilər ki, daha bəsdir, onlar camı şahın idmançılarına verməyə razıdırlar. Sonra şah idmançıları atmağa başladılar. Onlar bu oyunu görmüşdülər və daha təcrübəli idilər, üçün-cünün bəxti gətirdi və o camı vurdu. Dərhal camı şaha təqdim etdi. Şah onu kifayət qədər səmimi və ehtiramla qarşıladı və elə burdaca ona xan rütbəsi verdi və o, bundan sonra xanlarla bir sırada dayandı. Bu şəxs yoxsul bir ailənin oğlu idi. Şahın göstərişi ilə qalibə qızıl sikkələr və başqa qiymətli hədiyyələr verildi".

Səyyah gündəliklərindən aydın olur ki, idman oyunlarında əvvəlcədən müəyyən edilmiş qaydalara ciddi əməl edilir və yarışın qalibləri xüsusi müka-fatla təltif olunurdu. İdman yarışları dövlət səviyyəsində keçirildikdə qaliblərin müəyyən edilib mükafatlandırılması ilə bağlı təşkil olunan mərasimlərdə şah özü də fəal iştirak edirdi.

XVI əsr Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən olan Əbdi bəy Şirazi Nizami təsiri ilə qələmə aldığı "Təkmillət ül-əxbar" ("Xəbərlərin təkmili", 1570) adlı "Xəmsə"sinin "Dühət-əl-əzhar" məsnəvisində səfəvi pay-taxtlarından biri olan Qəzvin şəhərindəki "Çehel sütun" sarayının divar rəs-mindən bəhs edir. Burda şair "Qəpəq" oyunu təsvir etmişdi.

Qeyd etməliyik ki, mütəhhərriklik, təndürüstlük, sərrastlıq, inadkarlıq və təşəbbüskarlıq və s. kimi fiziki-iradi keyfiyyətlər formalaşdıran qəpəq tipli otüstü milli-idman oyunlarımız həm də mənəvi-əxlaqi-etik baxımdan səciyyəvi xarakter daşıyır. Hər bir oyunçudan şüurlu intizam, ədalətlilik, qürur, dəyanət və dostluq kimi mənəvi-əxlaqi sifətlər aşılayan cirid, qəpəq oyunları bir milli idman növü olaraq mərdlər, igidlər oyunu kimi xarakterizə olunardı. Milli oy-anış, milli özünə qayıdış dövründə müstəqil ölkəmizdə fədakar, şücaətli övlad-ların yetişməsində, onların qəhrəmanlıq ruhunda tərbiyə olunmasında belə qə-dim milli-idman oyunlarının bərpasına və inkişafına hazırkı şəraitdə daha çox önəm verilməlidir.

◆